Bülleten № 04 / aprel 2013

**Elektron Hökumət Portalı**

your gateway to all public services

www.e-gov.az

Rabitə və İnformasiya Texnologiyalari Nazirliyinin
Məlumat Hesablama Mərkəzi

# APREL 2013

# Elektron Hökumət Bülleteni



## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



# Elektron hökumət - beynəlxalq təcrübə, kim necə və nə cür edir?

*Dünya üzrə bütün ölkələrin "elektron hökumət" sistemlərinin inkişafı aşağıdakı üç əsas indeks üzrə müəyyənləşdirilir. **Bunlar:** onlayn-xidmətlərin göstərilməsi, müasir tələblərə uyğun telekommunikasiya infrastrukturu və insan kapitalıdır.*

Təcrübə göstərir ki, "elektron hökumət" texnologiyalarına yüksək iqtisadi inkişafa malik olan ölkələr daha fəal keçirlər. "Elektron hökumət" texnologiyalardan istifadəsinə görə Cənubi Koreya, Sinqapur, ABŞ və Böyük Britaniya və Avropanın aparıcı iqtisadiyyatına malik olan ölkələr – Niderland, Böyük Britaniya, Danimarka lider ölkələr siyahısındadırlar. Son illər yeni lider ölkələr arasında İsrail, Lüksemburq və Lixtenşteynin də adları vardır. Maraqlıdır ki, həmin ölkələrin reytinqi bu sahədə tanınmış liderlər olan Yaponiya və Estoniyanı geridə qoymuşdur.

Ölkələr üzrə yaradılmış və istifadə olunan "elektron hökumət" sistemləri tərəfindən təqdim olunan onlayn xidmətlərin inkişafının əsas meyarı "bir pəncərə" prinsipi üzərində qurulmuş "elektron xidmətlər" portalıdır. Cənubi Koreyanın lider olmasının əsas səbəblərindən biri də mobil telefonların imkanlarından yararlanması, iPhone və Android sistemləri üçün mobil əlavələrdən (proqramların) geniş istifadə olunması və bütün ölkə ərazisində 3G şəbəkəsi vasitəsilə internetin əlyetərliliyinin təmin edilməsidir. Koreyada "elektron hökumət" portalı, istifadəçilərə təqdim olunan bütün e-xidmətlərin 87%-ni bir nöqtədə (portalda) cəmləşdirmişdir. Cənubi Koreyanın hər bir vətəndaşı öz şəxsi maraqlarına uyğun "elektron hökumət" portalından çox rahat istifadə edir və istənilən vaxt mobil telefonunda olan mobil əlavələr (proqramlar) vasitəsilə istənilən sorğuya çox tez bir zamanda cavab ala bilir. Maraqlıdır ki, Cənubi Koreya Hökuməti "elektron hökumət" sistemi vasitəsilə vətəndaşlara tam dolğun elektron təlim (təhsili) sistemini və onlayn əmək birjasını da təqdim edir.

Böyük Britaniyada "DirectGov" portalı vasitəsilə, istifadəçi interfeysləri optimallaşdırılmış, eyni zamanda, bütün hökumət məlumatlarının və e-xidmətlərin vahid bir nöqtədən istifadəçilərə təqdim edilməsi təmin olunmuşdur. Hökumət tərəfindən təqdim olunan bütün əməliyyatlar və ictimai e-xidmətlər "Do it Online" səhifəsi və iş axtarışları isə "Jobcentre Plus" səhifəsi vasitəsilə təqdim olunur.

Niderlandda qurulmuş "e-Hökumət" sistemi dövlət strukturlarının informasiya sistemlərinin "bir pəncərə" prinsipi üzrə əlaqələndirilməklə müştərilər üçün maksimal rahatlıq təmin edilmşdir. Şəbəkəyə genişzolaqlı girişin yüksək səviyyədə olması Niderlandda milli "elektron hökumət"in inkişafına kömək edən amillərdəndir.

Danimarkanın "e-Hökumət" portalı - dövlət qurumlarını, sahibkarları və əhalini bir şəbəkəyə birləşdirən və müxtəlif e-xidmətləri təqdim edən və ölkə üzrə bütün pul köçürmələrini təmin edən mərkəzdir. Hesabatlara əsasən elektron bank hesabları vasitəsilə aparılan pul köçürmələri hər il, vətəndaşlara 150 milyon və biznes sektoruna isə 50 milyon avroya qənaət etmələrinə səbəb olur. Hər bir danimarkalı "E-Box" - şəxsi elektron poçtuna malikdir və bütün dövlət idarələrindən, krallığın şirkətlərindən gələn məktublar həmin ünvana daxil olurlar. Danimarkanın "elektron hökumət" portalının xidmətləri arasında tələbə kreditləri, dövlət pensiyasının idarə olunması, gəlirlərin qeydiyyatı və sairə bu kimi xidmətlər də vardır.

ABŞ-da təqdim olunan bütün e-xidmətlər "Usa.gov" portalı vasitəsilə inteqrasiya olunmuşdur. Axtarış sistemi vasitəsilə müxtəlif dövlət qurumlarının verilənlər bazasına daxil olub, istənilən məlumatı rahatlıqla əldə etmək məqsədilə hər bir istifadəçi üçün bütün şərait yaradılmışdır. Bir çox hesabatlarda ABŞ-ın "Usa.gov" portalı "e-Hökumət" saytları arasında nümunəvi sayt kimi göstərilir və başqa dövlətlərin "elektron hökumət" sistemləri üçün nümunə kimi tətbiq edilməsi tövsiyə edilir. Kanadanın "elektron hökumət"i də analoji portala malikdir.

Asiya regionu üzrə isə Sinqapurun "Sinqapur vətəndaşının portalı" ənənəvi liderlərdəndir. Burada "bulud texnologiyalarnın" inkişafını davam etdirilir və müəllimlər üçün "bulud" data mərkəzi yaradılmışdır. "Sinqapur vətəndaşının portalı" bu gün "onlayn" ödənişlərin aparılması, vergilər, lisenziyalar, cərimələr və müxtəlif elektron xidmətlər üzrə geniş imkanlara malikdir.

Mobil xidmətlər 33 qabaqcıl ölkədə müvəffəqiyyətlə reallaşır. Bu ölkələrdə vətəndaşlar öz mobil telefonunun balansından dövlət xidmətlərinin ödənişini apara bilərlər. Ekspertlər hesab edirlər ki, mobil xidmətlər sahəsi yaxın vaxtlarda çox sürətlə inkişaf edəcəkdir. Mobil əlaqə vasitəsilə yaşlılar və fiziki qüsurlu insanlar həmçinin kənd regionlarında yaşayan əhali üçün dövlət xidmətlərinə daxil olmasını genişləndirir.

Əhali tərəfindən sosial şəbəkələrdən istifadənin yüksək səviyyədə artması 78 dövləti "Twitter"-də, "Facebook"-da və başqa şəbəkələrdə öz rəsmi səhifələrini açmağa təhrik etmişdir. Bu sahədə ABŞ dövlət qurumlarının 66%-i öz sosial siyasətlərini, mikrobloqlar və digər vasitələrlə aparırlar. 14 ölkə tərəfindən dövlət portallarında çatlar və ya "IM"-xidmətlər təqdim edilir. Dövlət qurumları ilə vətəndaşlar arasında onlayn-mübadilə ən çox Latın Amerikası ölkələrində populyardır və geniş vüsat almaqdadır.

Avstraliyada və Yeni Zelandiyada hökumət tərəfindən yeni qanunların layihələri portal vasitəsilə istifadəçilərə təqdim olunur, vətəndaşlar isə elektron poçt vasitəsilə öz qeydlərini müvafiq nazirliklərə göndərirlər.

Panama Respublikasının "elektron hökumət"i müxtəlif şərhlərlə hökumətin rəsmi bloqunu aparır. Braziliyalı məmurlar isə, vətəndaşlar tərəfindən göndərilən sorğuları dövlət forumunda cavablandırırlar. Macarıstan hakimiyyəti "elektron demokratiya" adlanan multifunksional xidmətini təşkil etmişdir. Həmin xidmət vasitəsilə dövlət qulluqçuları 24 saat online iş rejimində vətəndaşlarla ünsiyyət saxlayırlar.

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# "Elektron Hökumət"
## reallıq və inkişaf perspektivləri

## Mövcud vəziyyət

"Hökumət-hökumət", "Hökumət-biznes", "Hökumət-vətəndaş" və "biznes-vətəndaş" münasibətlərinin effektiv olaraq həyata keçirilməsi üçün əsas şərtlərdən biri də, dövlət orqanları tərəfindən elektron xidmətlərin təqdim olunmasıdır. Son illər ölkəmizdə, "elektron hökumət" münasibətlərinin inkişaf etdirilməsini, elektron xidmətlərin təqdim olunmasını mümkün edən bir çox işlər görülmüşdür.

Sahənin inkişafı üzrə zəruri normativ hüquqi baza yaradılmış və inkişaf siyasəti müəyyənləşdirilmişdir. Bunun sayəsində dövlət orqanlarının informasiya sistemləri və ehtiyatları arasında inteqrasiyanın təmin edilməsi üçün vahid informasiya mühiti yaradılmışdır, bir sıra dövlət orqanlarının informasiya ehtiyatlarının elektron formaya keçirilməsi təmin edilmişdir. Dövlət orqanlarının elektron xidmətlərindən "bir pəncərə" prinsipi əsasında istifadənin təşkili məqsədilə "elektron hökumət" portalı yaradılmışdır və dövlət orqanlarının elektron xidmətləri cəmləşdirilmişdir.

RİTN-nin AzDataCom, XDMX-nin StateNet, Delta və Azərtelekom şirkətlərinin yüksək sürətli məlumatların ötürülməsi şəbəkələri bü gün ölkə ərazisini tam olaraq əhatə edir və dövlət orqanları arasında elektron məlumat mübadiləsinin təşkilinə imkan verir. Elektron imza infrastrukturunun yaradılması və istifadəçilərin elektron imza ilə təmin edilməsinə başlanılmışdır, həmçinin mobil autentifikasiya sertifikatları mərkəzi yaradılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları normativ hüquqi aktların layihələrinin "elektron hökumət" portalında yerləşdirilməsi və ictimai müzakirəyə çıxarılması təmin edilmişdir. Dövlət informasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrləri, həmçinin elektron xidmətlər reyestri aparılır.

Dövlət orqanlarının informasiya sistemlərinin informasiya təhlükəsizliyinin təmin olunmasına ciddi fikir verilir.

Vətəndaşların "elektron hökumət"in mövcud imkanlarından istifadəsini genişləndirmək məqsədilə ölkə ərazisində genişzolaqlı xidmətlərdən istifadə imkanlarının artırılması və "Hər evə optika" prinsipi əsasında evlərin optik kabelləşdirilməsi layihəsinə başlanılmışdır. Mobil operatorların 2G və 3G şəbəkələri üzərindən internetin respublikamızın bütün bölgələrində əlyetərli olması, bununla da mobil elektron xidmətlərin inkişafına və genişlənməsinə zəmin yaratmışdır.



## İnkişaf perspektivləri

Ölkəmizdə müasir tələblərə cavab verən idarəetmənin təşkil edilməsi, dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması, şəffaflığının təmin edilməsi və bürokratiyanın aradan qaldırılması üçün "elektron hökumət"in inkişafı, təkmilləşdirilməsi və elektron xidmətlərin göstərilməsi istiqamətində tədbirlərin davam etdirilməsi zəruridir.

"Elektron hökumət"in inkişafi məqsədilə elektron xidmətlərin əhatə dairəsinin və onlardan vətəndaşların istifadəsinin genişləndirilməsi həyata keçiriləcəkdir. Dövlət orqanlarında kağız daşıyıcılarda mövcud olan məlumatların elektronlaşdırılması, onların müvafiq elektron informasiya ehtiyatlarında toplanılması bu işlərə əsas yaradacaqdır. Dövlət orqanlarında informasiya sistemlərinin istifadəsinin hərtərəfliliyi və elektron xidmətlərin "elektron hökumət" portalına tam inteqrasiyası təmin ediləcəkdir.

Mövcud informasiya sistemləri və ehtiyatları arasında səmərəli informasiya mübadiləsinin təmin edilməsi üçün informasiya ehtiyatlarında fərdi identifikasiya nömrələrindən (FİN) istifadə təmin ediləcək, informasiya mübadiləsi "elektron hökumət" portalı vasitəsilə aparılacaq və eyni məlumatların müxtəlif mənbələrdə formalaşdırılması halları aradan qaldırılacaqdır.

İnformasiya ehtiyatlarından ünvanlı istifadənin və fərdi məlumatların mühafizəsinin təmin edilməsi üçün autentifikasiya mexanizmləri gücləndiriləcək, elektron imza texnologiyaları tətbiq ediləcək və "elektron hökumət" portalının təqdim etdiyi vasitələrindən geniş istifadə olunacaqdır.

Dövlət qulluqçularının elektron xidmətlərin təşkili, vətəndaşların isə onlardan istifadəsi sahəsində bilik və bacarıqlarının artırılması məqsədilə maarifləndirmə və təşviqat, stimullaşdırılma tədbirləri genişləndiriləcəkdir.

"Elektron hökumət"in inkişafında innovativ yeniliklərin tətbiqinə, sosial şəbəkələr və digər onlayn media vasitələrindən istifadəyə fikir veriləcəkdir.

**Elektron Hökumət Portalı**
your gateway to all public services
www.e-gov.az

# Elektron Hökumət portalına müraciətlər artır

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin (RİTN) Məlumat Hesablama Mərkəzi (MHM) tərəfindən "elektron hökumət" portalına daxil olmaq üçün təqdim olunan sadələşdirilmiş kod parolların sayı 10000-ə çatdı. Bu daxil olma vasitəsindən istifadə olunmasına 2012-ci ilin oktyabr ayından başlanılmışdır. Qeyd olunmalıdır ki, təkcə son iki ayda (31.03.13 tarixə) qeydiyyatdan keçən vətəndaşlarımızın sayı 5547 olmuşdur ki, bu isə son aylarda müşahidə olunan dinamik artımı göstərir.




Qeyd edək ki, "elektron hökumət" portalına sadələşdirilmiş daxilolma vasitəsi olan kod parol-u almaq üçün elektron qeydiyyatdan keçə bilməyən vətəndaşlarımız Respublikamızın bütün rayon mərkəzlərində və Bakıda bütün poçt şöbələrində müvafiq pin zərfləri almaqla kod parol -u əldə edə bilərlər. Poçt şöbələrindən pin zərfləri əldə etmək üçün çox sadə bir identifikasiya proseduru tələb olunur və xidmət ödənişsizdir.

Təqdim olunan qrafikdə 01.01.2013 tarixdən 31.03.2013 online müraciət vasitəsilə qeydiyyatdan keçməyə cəhd edənlərin dinamikası göstərilmişdir. Müşahidə olunduğu kimi müraciətlərin sayı artmaqdadır.



**Elektron Hökumət Portalı**
your gateway to all public services
www.e-gov.az

MHM tərəfindən təqdim olunmuş, gücləndirilmiş elektron imza vəsiqələrinin sayı 11 000- ə çatmaqdadır.

Təqdim edilən e-imza vəsiqələrinin təxminən 5000 ədədi son 3 ay ərzində verilmişdir. Burada da dinamik bir artım müşahidə olunmaqdadır.

Portala daxil olmaların sayının artmasına bariz nümunə kimi elektron hökumət" portalının rəsmi "Facebook" səhifəsində istifadəçilərin sayının artıq 26000-ə çatmasını da göstərmək olar.

Hal hazırda çağrı mərkəzimizə, elektron poçtumuza və sosial şəbəkə vasitəsilə daxil olan təkliflər gələcəkdə portalın fəaliyyətində nəzərə alınması üçün öyrənilir və dəyərləndirilir.

Dövlət qurumlarından elektron imza vəsiqələrinə artan tələbatı nəzərə alaraq və geniş istifadəni stimullaşdırmaq məqsədilə, 3 illik elektron imza sertifikatlarının qiyməti 135 AZN-dən 80 AZN-ə salınmışdır. Həmçinin bildirik ki, vətəndaşlar üçün e-imza kartlarının və 3 illik sertifikatların qiyməti 30 AZN-dir.

Kod-parolun onlayn əldə edilməsi üçün Elektron hökumət portalında online qeydiyyat səhifəsinə daxil olmaq olar. Elektron imza vəsiqələrinin onlayn əldə edilməsi üçün e-imza.az saytında online müraciət səhifəsinə daxil olmaq olar.




Son 3 ayda "elektron hökumət" portalına olan müraciətlərin sayı 114 221 min olmuşdur. Bu müraciətlər 77 179 fərd tərəfindən edilmişdir. Portalın papulyarlığının artması, onun lazımlı bir vasitəyə çevrilməsi artıq başlamışdır, yeni yeni faydalı elektron xidmətlərin portala əlavə olunması ilə bu rəqəmlər daha da çoxalacaqdır.

Əhali qrupunun eıektron xidmətlərə marağının stimullaşdırılması məqsədilə ilkin mərhələdə vətəndaşlar tərəfindən e-imzanın internet üzərindən sifarişi zamanı 5 AZN güzəşt tətbiq edilməklə 25 AZN-ə endirilib.



Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# Gömrük sahəsində "elektron hökumət" həllərinin Azərbaycanda tətbiqi və bu sahədə beynəlxalq təcrübə müzakirə ediləcək

Cari ilin 6-7 may tarixlərində Qəbələ şəhərində "E-hökumət: gömrük sahəsində innovasiyalar" mövzusunda beynəlxalq konfrans keçiriləcəkdir. Dövlət Gömrük Komitəsindən (DGK) verilən məlumata görə, 5-ci yubiley beynəlxalq elmi-praktik konfransın əsas məqsədi "elektron hökumət" quruculuğu və onun tətbiqi ilə bağlı dünya təcrübəsi, elektron idarəçilik sahəsində dövlət qurumları arasında əməkdaşlığın müasir formalarının müzakirəsi, gömrük işində və iqtisadiyyatın digər sahələrində İKT-nin tətbiqi və innovativ idarəetmə metodları ilə bağlı mövcud vəziyyətin öyrənilməsi və təcrübə mübadiləsinin aparılmasıdır.

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin dəstəyi ilə keçiriləcək konfransda "elektron hökumət" layihəsinin həllər yolu", "Dövlət orqanlarında elektron xidmətlər göstərilməsinin təşkili", "Gömrük xidmətində İKT və e-gömrük xidmətləri", "Gömrük-biznes əməkdaşlığında İKT-nin rolu" mövzularında müzakirələr aparılacaq, Azərbaycanda müxtəlif sahələrdə "elektron hökumət" üzrə görülmüş işlərin sərgisi təşkil ediləcəkdir.

Konfransın idarəetmə şurasına Dövlət Gömrük Komitəsinin sədri, professor Aydın Əliyev, AMEA Kibernetika İnstitutunun direktoru, akademik Telman Əliyev, AMEA İnformasiya Texnologiyaları İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Rasim Əliquliyev, Ukrayna Elmlər Akademiyasının akademiki, Əməkdar elm və texnika xadimi, Elm və texnika sahəsində Ukrayna Dövlət Mükafatı laureatı, texnika elmləri doktoru, professor S.D.Buşuyev, Türkiyə Qazi Universitetinin Texnologiya fakültəsinin Elektrik və Elektron Mühəndislik Departamentinin direktoru, professor Çetin Elmas daxildir. Konfransın işçi dilləri Azərbaycan, rus, ingilis, fransız və ispandır.

Konfransda dövlət orqanlarının əməkdaşları, gömrük əməkdaşları və təşkilatları, özəl şirkətlər və qeyri-hökumət təşkilatları, sahibkarlar və iş adamları, İKT və gömrük işinin təşkili sahəsində elmi tədqiqatlar aparan elmi işçilər, aspirant və tələbələr, İKT sahəsində çalışan mütəxəssislərin iştirakı nəzərdə tutulur. Konfransın materialları nəşr olunacaq.

Təşkilat Komitəsindən qeyd edilib ki, konfransda iştirak etmək üçün aprelin 20-nə qədər Dövlət Gömrük Komitəsinin internet səhifəsində "http://www.customs.gov.az/" ünvanında qeydiyyatdan keçmək lazımdır: "Məruzəçilər konfransda çıxış və təqdimat üçün hazırladıqları materialları elektron formada təqdim etməlidirlər".

## 01.03.2013 - 31.03.2013-cü il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı

| № | Xidmətin adı | Təchizatçının adı | Sayı |
|---|---|---|---|
| 1 | Pensiya kapitalı barədə məlumat | Dovlət Sosial Mudafiə Fondu | 7638 |
| 2 | Məcburi dövlət sosial sığotasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatın əldə edilməsi | Dovlət Sosial Mudafiə Fondu | 7576 |
| 3 | Pensiyaçı tərəfindən məlumatların əldə edilməsi | Dovlət Sosial Mudafiə Fondu | 2239 |
| 4 | Pensiya kalkulyatoru | Dovət Sosial Mudafiə Fondu | 2076 |
| 5 | Azərbaycan adları barədə məlumatın verilməsi | Ədliyyə Nazirliyi | 1027 |
| 6 | Diplom haqqında məlumatlar | Təhsil Nazirliyi | 960 |
| 7 | PİN-ə görə fərdi məlumatların axtarışı | Daxili İşlər Nazirliyi | 907 |
| 8 | Yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələr və cərimə balları barədə məlumatlar | Daxili İşlər Nazirliyi | 585 |
| 9 | Dövlət Məşğulluq Xidməti vasitəsilə iş axtarışı | Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi | 392 |
| 10 | Müəllim haqqında məlumatlar | Təhsil Nazirliyi | 373 |

## 01.04.2013 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 7895 | 221 | 2808 | 10924 |

www.e-gov.az

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# "Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə" daxil edilmiş informasiya sistemlərinin sayı barədə

Bütün qurumlar üzrə

| № | Qurumun adı | Dövlət İnformasiya Ehtiyatları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|---|---|
| 1 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzi | 4 | 3 | 7 |
| 2 | Dövlət Gömrük Komitəsi | 1 | | 1 |
| 3 | Dövlət Statistika Komitəsinin Baş Hesablama Mərkəzi | 1 | | 1 |
| 4 | Azərbaycan Respublikasının Ali Məhkəməsi | 6 | | 6 |
| 5 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 1 | | 1 |
| 6 | Dövlət Dəniz Administrasiyası | 1 | 1 | 2 |
| 7 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 2 | | 2 |
| 8 | İqtisadi İnkişaf Nazirliyi | 1 | | 1 |
| 9 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 1 | 1 | 2 |
| 10 | Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi | | 2 | 2 |
| 11 | "Bakıelektrikşəbəkə" ASC | | 2 | 2 |
| 12 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | | 1 | 1 |
| 13 | Dövlət Miqrasiya Xidməti | | 1 | 1 |
| 14 | Azərbaycan Respublikasının Mərkəzi Bankı | | 2 | 2 |
| 15 | Səhiyyə Nazirliyi | | 4 | 4 |
| 16 | Dövlət Sosial Müdafiə Fondu | 1 | 1 | 2 |
| 17 | Vergilər Nazirliyi | 1 | | 1 |
| 18 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 6 | | 6 |
| 19 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 4 | | 4 |
| 20 | "Azərenerji" ASC | 1 | 1 | 2 |
| 21 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Dövlət Torpaq Kadastrı və Monitorinqi Elm - İstehsalat Mərkəzi | 1 | | 1 |
| 22 | Bank "BTB" Açıq Səhmdar Cəmiyyəti | 1 | | 1 |
| 23 | "Ata Sığorta" Açıq Səhmdar Cəmiyyət | | 1 | 1 |
| 24 | Bank Melli İran | | 1 | 1 |
| 25 | "Zamin Bank " ASC | | 1 | 1 |
| 26 | "Alfa Sığorta" Açıq Səhmdar Cəmiyyəti | | 1 | 1 |
| 27 | "Buta Sığorta" Açıq Səhmdar Cəmiyyəti | | 1 | 1 |
| 28 | "Parabank" ASC | | 1 | 1 |
| 29 | "Paşa Sığorta" Açıq Səhmdar Cəmiyyəti | | 1 | 1 |
| 30 | "Azedunet" MMC | | 1 | 1 |
| 31 | "Kapital Bank" Açıq Səhmdar Cəmiyyəti | | 1 | 1 |
| 32 | "Turanbank" Açıq Səhmdar Cəmiyyəti | | 1 | 1 |
| 33 | "Konnekt" Məhdud Məsuliyyətli Cəmiyyəti | | 1 | 1 |
| | CƏMİ | 33 | 30 | 63 |

www.e-gov.az

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş e-xidmətlər üzrə hal-hazırda "E-xidmətlər portalı"nda yerləşdirilmiş e-xidmətlərin sayı və portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı barədə

# MƏLUMAT

01.04.2013

| Sıra № | Dövlət qurumunun adı | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən E-gov.az portalında olan e-xidmətlərin sayı | E-gov.az portalında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olan e-xidmətlərin sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 0 | 0 | 4 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 23 | 22 |
| 3 | Ədliyyə Nazirliyi | 17 | 3 | 3 | 9 | 10 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 4 | 4 | 4 | 4 | 4 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 5 | 3 |
| 6 | İqtisadi İnkisaf Nazirliyi | 7 | 5 | 9 | 9 | 6 |
| 7 | Vergilər Nazirliyi | 57 | 3 | 9 | 46 | 46 |
| 8 | Sənaye və Energetika Nazirliyi | 9 | 6 | 6 | 6 | 6 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 | 3 | 6 | 12 | 12 |
| 10 | Kənd Təsərrufatı Nazirliyi | 12 | 11 | 16 | 18 | 12 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 15 | 15 | 18 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 6 | 2 |
| 13 | Təhsil Nazirliyi | 8 | 1 | 3 | 25 | 3 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 7 | 7 | 13 | 13 |
| 15 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 16 | 9 | 24 | 27 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 2 | 2 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komit?si | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qacqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 2 | 5 | 9 | 5 |
| 23 | Dövlət Torpaq və Xərtitəçıkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 8 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 6 | 0 | 3 | 9 | 4 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 3 | 3 | 6 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 5 | 0 | 0 | 0 | 0 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 0 | 0 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 0 | 0 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 25 | 4 | 4 | 11 | 11 |
| 31 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 3 | 3 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 12 | 2 | 4 | 12 | 12 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 10 | 0 | 0 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 2 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Cağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 0 | 0 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 5 | 5 | 18 | 18 |
| 40 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 0 | 0 |
| 41 | "Meliorasiya və su təsərrüfatı" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 42 | "Azərsu" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| 43 | "Azərenerji" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| | **CƏMİ:** | **417** | **130** | **187** | **384** | **311** |

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# Sosial risklərlə qarşılaşdıqda sosial sığorta ödəmələri ala bilməniz üçün nə etməli olduğunuzu bilirsinizmi?




Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun (DSMF) internet saytında (www.dsmf.gov.az, www.sspf.gov.az) keçirilən “Sosial risklərlə qarşılaşdıqda sosial sığorta ödəmələri ala bilməniz üçün nə etməli olduğunuzu bilirsinizmi” adlı sorğu yekunlaşıb. Sorğuda iştirak edənlərin 57,65 faizi suala “xeyr”, 42,35 faizi isə “bəli” cavabını verib.

Sorğunun nəticələrindən göründüyü kimi, respondentlərin çoxu sosial risklərlə üzləşdikdə sosial sığorta ödəmələri ala bilmək üçün nə etməli olduğunu bilmədiyini vurğulayıb.

Sosial risklərlə qarşılaşdıqda sosial sığorta ödəmələri ala bilmək üçün hər bir şəxs ilk növbədə işlədiyi yerdə Əmək müqaviləsi imzalamalı, müqavilə tərtib olunarkən dövlət sosial sığorta şəhadətnaməsini (ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla) təqdim etməli və işəgötürən tərəfindən şəhadətnamənin nömrəsinin dəqiq göstərilməsinə çalışmalıdır. Bu ona görə vacibdir ki, ölkəmizdə işləyənlərin sosial müdafiəsi məcburi sosial sığortalanma əsasında aparılır və təyin edilən sosial ödənişlərin miqdarı sığorta stajından, vətəndaşın fərdi şəxsi hesabında toplanmış məcburi dövlət sosial sığorta haqlarının miqdarından birbaşa asılıdır. Xeyrinə məcburi dövlət sosial sığorta fəaliyyəti həyata keçirilən şəxslər sosial risklərlə qarşılaşdıqda (pensiya yaşına çatmaq, əlil olmaq, ailə başçısını itirmək, əmək qabiliyyətinin müvəqqəti itirilməsi, hamiləlik və doğum, uşağın anadan olması, uşağa qulluq və s.) sosial sığorta ödəmələrini almaq hüququna malik olurlar.

Qeyd edək ki, DSMF-nin internet saytında dövrü olaraq bu tipli sorğuların keçirilməsində başlıca məqsəd əhalinin ölkəmizdə davam etdirilən sığorta-pensiya islahatları barədə nə dərəcədə məlumatlı olmasını öyrənmək və vətəndaşların daha az informasiyaya malik olduğu sahələr istiqamətində təbliğat işlərini gücləndirməkdir.

# Nə üçün elektron imza?

Elektron imza elektron aləmdə şəxsiyyəti müəyyənləşdirmə xidmət edən vasitələrdəndir. Gündəlik həyat və fəaliyyətimizdə geniş istifadə etdiyimiz informasiya texnologiyalarının yaratdığı imkanlardan səmərəli bəhrələnmək üçün hüquqi cəhətdən elektron imza ilə imzalanmış elektron sənədlər əl ilə imzalanmış sənədlərə bərabər tutulur. Elektron sənəd mübadiləsinin bütün iştirakçıları bir-birindən uzaqda olmalarına baxmayaraq eyni imkanlar əldə edirlər. Bir sözlə, elektron imza dövrün tələbləri sırasında informasiya cəmiyyətinin vacib elementlərindən birinə çevrilir.

Mövcud şəbəkədə təhlükəsizliklə bağlı zərurətlər vardır və bu baxımdan elektron imzanın üstünlükləri bu problemin həllinə yardım edir. İndi isə üstünlüklərin qısa şərhinə diqqət edək:

Məxfilik - sənədlərin və məlumatların mübadiləsi zamanı bunu basqalarının izləməsi mümkün deyil.

Bütövlük - başqalarının göndərilən sənədlərə və məlumatlara dəyişiklik etməsinə imkan vermir və onların bütövlüyünü təmin edilir.

Tanınma - sənədlərin və məlumatların mübadiləsi zamanı göndərən tərəfi birmənalı müəyyən etmək mümkün olur və onun həqiqiliyinə şübhə qalmır.

İnkaredilməzlik - sənədlərin və məlumatların mübadiləsi zamanı elektron imzanın bilavasitə məxsus olduğu şəxs tərəfindən qoyulduğu təmin edildiyindən məsuliyyətdən yayınmanı mümkünsüz edir və iddiaları aradan qaldırır.

Elektron imzanin sosial ve iqtisadi mühitin bütün sahələrində istifadə və tətbiqi mümkündür. “elektron hökumət” həllərində geniş tətbiq imkanları mövcuddur. Sorğuların keçirilməsi, şəxsiyyətin təyini və şəxsiyyəti təyin edən sənədlərin verilməsi.

Vergi orqanları, sosial müdafiə, sağlamlıq kartları, elektron seçkilər və səsvermənin təşkili, tədris prosesi və elektron imtahan, virtual satınalmalar və İnternet bankçılıq, elektron bələdiyyə kimi sistemlərdə elektron imza tətbiq olunacaq. Elektron ticarət həlləri zamanı, o cümlədən sığortalama işləri, elektron ticarət, elektron müqavilələr və hər cür ödənişləri həyata keçirərkən elektron imza əvəzedilməz vasitəyə çevrilir.

Elektron imzanin sosial mudafiə sistemində tətbiqi nəticəsində saysız-hesabsız sənədlərin toplanması, arayışların alınması prosesləri aradan qalxacaq, imza sahibinin bürokratik əngəllərə rast gəlməsimə imkan verilməyəcək. Artıq hansısa məmurun sənəd imza edəcəyini çox gözləmək lazım olmayacaq. Elektron imza vətəndaşların qəbul otaqlarında vaxt itkisini aradan qaldıracaq. Virtual satınalmalar zamanı beynəlxalq səviyyədə tanınan elektron imza münasibətlərin qurulmasında, etibarlılığın təmin edilməsində əsas vasitə olacaq və iqtisadiyyatın bu sahəsinin inkişafına böyük dəstək verəcək. Vergi hesabatları və ödəmələri zamanı elektron imza həqiqiliyin təmin olunmasında hüquqi və fiziki şəxslərin məsuliyyətdən yayınmalarının aradan qalxmasında iştirak edəcək.

Yeni texnologiyalarin gündəlik həyatın ayrılmaz tərkib hissəsinə çevrilməsi əsrlərdən bəri istifadəsi mümkün olmuş ənənəvi imzanın elektron alternativini həqiqətə çevirdi. Bu baxımdan elektron imza ve onun elektron sənəd dövriyyəsində tətbiqi ən azı bunları təmin edəcək: kargüzarlıq əməliyyatlarında sərf olunan vaxta qənaət olunması və iş prosedurunun sistemləşdirilməsi; rəsmi yazışmaların elektron formada həyata keçirilməsi və etibarlılığın artırılması; vətəndaşlar tərəfindən müvafiq orqanlara müraciətlərə tez bir zamanda baxılması; elektron konvensiyanın inkişafına nail olunması; dövlət və dövlət orqanları, dövlət və sahibkarlar arasında münasibətlərin şəffaflığı. Bütün deyilənlər bir daha sübut edir ki, elektron imzanın respublikada tətbiqi təhlükəsizlik məsələlərinin həllində çox mühüm addım hesab edilə bilər.

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## 01.03.2013 – 31.03.2013-cü il dövrü ərzində “Elektron hökumət” portalındakı e-xidmətlərdən istifadə barədə statistik məlumat

| № | Xidmət təchizatcısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Daxili İşlər Nazirliyi | 5 | 1532 |
| 2 | Müdafiə Sənayesi Nazirliyi | 2 | 6 |
| 3 | Ədliyyə Nazirliyi | 3 | 1359 |
| 4 | Vergilər Nazirliyi | 10 | 1046 |
| 5 | İqtisadi İnkişaf Nazirliyi | 5 | 28 |
| 6 | Sənaye və Energetika Nazirliyi | 1 | 2 |
| 7 | Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi | 6 | 1068 |
| 8 | Təhsil Nazirliyi | 3 | 731 |
| 9 | Səhiyyə Nazirliyi | 7 | 298 |
| 10 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 13 | 1977 |
| 11 | Nəqliyyat Nazirliyi | 4 | 78 |
| 12 | Fövqaladə Hallar Nazirliyi | 11 | 106 |
| 13 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 2 | 2 |
| 14 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 |
| 15 | Qacqınların və Məcburi Kockunlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 18 |
| 16 | Dövlət Gömrük Komitəsi | 4 | 270 |
| 17 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 12 | 399 |
| 18 | Dövlət Statistika Komitəsi | 5 | 93 |
| 19 | Əmlak Məsələləri Dövlət Komitəsi | 3 | 85 |
| 20 | Dövlət Sosial Müdafiə Fondu | 7 | 19538 |
| 21 | Müəllif Hüquqları Agentliyi | 4 | 9 |
| 22 | Dövlət Dəniz Administrasiyası | 3 | 6 |
| 23 | Dövlət Sərhəd Xidməti | 3 | 9 |
| 24 | Milli Arxiv İdarəsi | 3 | 19 |
| 25 | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 141 |
| 26 | "AzərEnerji" ASC | 1 | 2 |
| 27 | "AzərSu" ASC | 1 | 172 |
| 28 | "Meliorasiya və su təsərrüfatı” ASC | 2 | 2 |
| 29 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 1 |
| | CƏMİ | 130 | 28998 |

*Cədvəldəki ardıcılıq Nazirlər Kabinetinin struktur sıralanması (http://cabmin.gov.az) üzrədir.

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# Elektron imza saytı yeni tərtibatda fəaliyyət göstərir




Milli Sertifikat Xidmətləri Mərkəzinin (MSXM) "elektron imza" saytı (*www.e-imza.az*) fərqli tərtibatda yenilənib. İstifadəçi sayta daxil olaraq onu maraqlandıran informasiyanı çox asanlıqla əldə edə biləcək. Sayt ən son internet texnologiyaları əsasında hazırlanıb.

Azərbaycan, rus və ingilis dili versiyalarında işləyən sayt alt kateqoriyalı 6 əsas ("Xidmət haqqında", "Texniki dəstək", "E-imzadan istifadə", "Tariflər", "Onlayn müraciət", "Mərkəzlər") menyuya bölünüb.

MSXM-in xidmətlərinə məlumatlar gizli saxlanılmaqla elektron imza yaratma və yoxlama məlumatlarının yaradılması; elektron imza sertifikatının elektron sənəd formasında, həmçinin kağız daşıyıcıda hazırlanması; elektron imza yaratma və yoxlama məlumatlarının daşıyıcıya yazılması; elektron imza sertifikatlarının reyestrinin aparılması, onların texniki dəstəklənməsi, imza sahiblərinin sorğuları əsasında sertifikatının qüvvəsinin dayandırılması və bərpası, elektron imza sahibləri və elektron imza sertifikatının statusu haqqında informasiyanın aktuallığının təmin edilməsi daxildir.

Bundan əlavə Mərkəz elektron imza sertifikatları reyestrindəki qüvvəsi dayandırılmış və ya ləğv edilmiş elektron imza sertifikatları haqqında Mərkəzin saytında yerləşdirilmiş informasiyaya müraciət imkanının təmin edilməsi; imza sahibinin elektron imza sertifikatının istifadə imkanlarına təsir edə biləcək Mərkəzə məlum olmuş faktlar haqqında telefon, faks və ya elektron poçt vasitəsilə xəbərdar edilməsini həyata keçirir. Mərkəz həmçinin elektron imzanın və sertifikatın istifadəsi, elektron sənəddə imzanın həqiqiliyinin təsdiqlənməsi, elektron imza yaratma və yoxlama məlumatları vasitələrinin sazlanması, testdən keçirilməsi və istismarı ilə bağlı məsələlərdə elektron imza sertifikatı sahiblərinə məsləhətlərin verilməsini də təmin edir.

# "Elektron hökumət" Sertifikasiya Xidmətləri Mərkəzini elektron imza kartlarını "ASAN xidmət" mərkəzində də almaq mümkündür

asan xidmət

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində fəaliyyət göstərən "Elektron hökumət" Sertifikasiya Xidmətləri Mərkəzi tərəfindən hazırlanan "elektron imza" kartını əldə etmək üçün yaşayış yerindən asılı olmayaraq artıq hər bir vətəndaş 1 saylı Bakı "ASAN xidmət" mərkəzindəki poçt şöbəsinə də müraciət edə bilər.

Bu məntəqələrdən Sertifikasiya Xidməti Mərkəzinə daxil olan bütün sorğular dərhal emal edilir və müvafiq elektron imza kartları, sertifikatlar hazırlanır. Nəticə barədə elektron imza kartı sahibi olmaq istəyən şəxsin elektron ünvanına məlumat göndərilir və həmin poçt şöbəsindən əldə edilməsi təklif olunur.

# Elektron imzanı poçt şöbələrindən də almaq mümkündür



"Elektron imza"nın alınması ilə bağlı müraciətlər artıq "Azərpoçt" MMC-nin şöbələrində də qəbul olunur. İmzaların verilməsi, həmçinin ərizənin alıcılar tərəfindən təqdim edilməsi və imzanın dəyərinin ödənişindən sonra poçt rabitəsinin şöbələri tərəfindən həyata keçirilir. "Elektron imza"nın qiyməti onun istifadə müddətindən və istifadəçinin kateqoriyasından asılı olaraq dəyişir.

"Elektron imza"nı Azərbaycanın bütün ərazisində, o cümlədən Naxçıvan Muxtar Respublikasında əldə etmək olar. İmzanın alınması haqqında ətraflı məlumatı e-imza.az elektron ünvanından öyrənmək mümkünür.

# MOBİL AUTENTİFİKASİYA




## Dəyərli istifadəçilər!

Smartfon və digər tablet tipli mobil qurğulardan “Elektron Hökumət” portalına təhlükəsiz girişlərin təmin edilməsi üçün Sertifikat Xidmətləri Mərkəzi tərəfindən vətəndaşlara mobil ID sertifikatları artıq verilir. Vətəndaşlar mobil autentifikasiya xidmətlərindən yararlanırlar və mobil platformalardan “Elektron Hökumət”portalındakı xidmətlərdən istifadə edirlər.

© 2013 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az

SYSTEM CERTIFICATION ISO 14001 SGS

UKAS ENVIRONMENTAL MANAGEMENT 005